**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№371/3** **23 dekabr 2024-cü il**

## Auditorlar Palatasının üzvlərinin fəaliyyətinin "Auditorun şəxsi kabineti" sistemində monitorinqinin nəticələri barədə

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 8.4-cü "Palata üzvlərinin fəaliyyətinin "Auditorun şəxsi kabineti" sistemində monitorinqinin aparılması" bəndinə uyğun olaraq Palatanın Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən təqdim edilmiş arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının üzvlərinin fəaliyyətinin "Auditorun şəxsi kabineti" sistemində monitorinqinin aparılmasına dair arayış nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və sərbəst auditor Şamxal Kərimova tapşırılsın ki, üç həftə müddətində auditor xidməti göstərilməsinə dair bağladıqları müqavilələri 2023-cü və 2024-cü illər üzrə "Auditorun şəxsi kabineti" sisteminə daxil etməyən Palatanın üzvləri – "BDO Azərbaycan" MMC-nin direktor-auditoru Salayev Yunis Elxan oğlundan və "Davud Mamedov" MMC-nin direktor-auditoru Məmmədov Davud Zahid oğlundan müvafiq izahatlar alınmaqla bunun səbəbləri araşdırılsın və Palatanın rəhbərliyinə təkliflərini hazırlayıb təqdim etsinlər.
3. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, auditor xidmətlərinin göstərilməsinə dair bağlanılmış müqavilələrin və tərtib edilmiş auditor rəylərinin müvafiq təlimata uyğun olaraq "Auditorun şəxsi kabineti" sisteminə vaxtında və düzgün daxil olunmasını təmin etsinlər.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın mətninin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
5. Bu qərarın və arayışın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**